20 noyabr 2020-ci il
№39 (8903)

www.muallim.edu.az
muallim@edu.gov.az

AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

# QARABAĞ bizimdir, Azərbaycandır!



**İlham ƏLİYEV,**
**Müzəffər Ali Baş Komandan**

## BİZ bundan sonra qürur hissi ilə yaşayacağıq

**Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq – müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi.**